

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 oktyabr 2024-cü il №74 (2885) https://mod.gov.az Qiymәti 30 qəpik


## Tarixi Zəfər Ulu Öndər Heydər Əliyev ideyasının təntənəsi oldu



Vətən müharibəsində qazanılan tarixi Zəfər Azərbaycanın tarixində ən böyük qələbələrdən biri kimi əbədiləşmişdir. Bu Zəfər yalnız Azərbaycan Ordusunun gücünü deyil, həm də Ulu Öndər Heydər Əliyevin strateji baxışlarının və uzaqgörən ideyalarının uğurlu nəticəsini özündə əks etdirir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə torpaqlarımızın erməni işğalından azad edilməsi məsələsi onun siyasi gündəminin mərkəzində dayanırdı. Sovet İttifaqının süqutu ilə yanaşı, Ermənistanın Azərbaycana qarşı başladığı hərbi təcavüz respublikamızın Qarabağ bölgəsindəki erməni separatçılarının fəallaşması və Azərbaycanın ərazi bütövlüyünə qəsdlər Ümummilli Lider üçün milli təhlükəsizlik məsələsi kimi dəyərləndirilirdi. Ulu Öndər daima vurğulayırdı ki, Azərbaycan və Ermənistan arasında mövcud olmuş münaqişə yalnız güclü dövlət quruculuğu, beynəlxalq aləmdə uğurlu diplomatiya və hərbi qüdrətlə həll edilə bilər. Dahi rəhbər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə ölkəmizin Qarabağ bölgəsi ilə bağlı siyasətində yeni mərhələ başlandı. O, diplomatiya ilə beynəlxalq arenada Azərbaycanın mövqelərini gücləndirdi və ölkənin daxilində sabitlik yaratmaqla, hərbi sahənin inkişafına ciddi əhəmiyyət verdi. Bu yanaşma torpaqlarımızın azadlığı üçün strateji baza oldu.

**Ulu Öndərin ordu quruculuğu siyasəti**

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra, ilk növbədə, ordu quruculuğunu gücləndirməyə başladı. Onun əsas məqsədi güclü, peşəkar və beynəlxalq standartlara cavab verən ordu yaratmaq idi. Ordu dahi rəhbər Heydər Əliyev üçün dövlətin möhkəm dayağı, ərazi bütövlüyünün zəmanəti hesab edilirdi. Ulu Öndərin səyləri nəticəsində Azərbaycan Ordusu yenidən formalaşdı və gücləndirildi. Milli Ordunun yaradılması və inkişaf etdirilməsi istiqamətində atılan hər bir addım Zəfərə aparan yolun təməllərini qoydu.

Ulu Öndər Heydər Əliyev ordunun döyüş qabiliyyətinin artırılması ilə yanaşı, Azərbaycan xalqının mənəvi birliyinə və milli ruhunun möhkəmləndirilməsinə də böyük diqqət yetirdi. Vətənpərvərlik tərbiyəsi, xalqımızın birliyinə xidmət edən siyasət Ümummilli Liderin dövründə formalaşmışdır. Bu ideologiya Şanlı Zəfərimizin əsl mənəvi dayağı oldu. Azərbaycanın hər bir vətəndaşı üçün Vətənə sevgi, torpağı qorumaq naminə fədakarlıq Ulu Öndər Heydər Əliyev tərəfindən verilmiş bir mirasdır.

**(Ardı 2-ci səhifədə)**

## ƏÜO-nun xüsusi təyinatlı bölmələri ilə taktiki-xüsusi təlim keçirilib

Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) xüsusi təyinatlı bölmələri ilə "Gecə şəraitində düşmən obyektinə qəfil basqın" mövzusunda taktiki-xüsusi təlim keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, plana əsasən icra olunacaq fəaliyyətlər xəritə üzərində dəqiqləşdirilib.

Xüsusi təyinatlılar məhdudgörmə şəraitində şərti düşmənin dərinliyinə sızaraq pusqu, basqın və müxtəlif təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.

Vaxt normativinə uyğun təyin olunan yüksəklik xüsusi təyinatlılar tərəfindən ələ keçirilib, dairəvi mühafizə və müdafiənin təşkili ilə növbəti hakim yüksəkliyin tutulması üçün mobil qruplar fəaliyyətini davam etdirib.

Təlim zamanı təminat-təxliyə qrupları tərəfindən yaralıların təxliyəsi və sursat təminatının çatdırılması da praktiki məşq etdirilib.

Azərbaycan Ordusunun son dövrlərdə apardığı uğurlu döyüş əməliyyatlarında qazanılan təcrübənin tətbiq edildiyi taktiki-xüsusi təlimdə verilən tapşırıqlar yüksək peşəkarlıq və səriştə ilə yerinə yetirilərək qarşıya qoyulmuş məqsədlərə tam nail olunub.



## "Eternity-2024" çoxmillətli komanda-qərargah təlimi başa çatıb



Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə Gürcüstanda keçirilən "Eternity-2024" çoxmillətli komanda-qərargah təlimi başa çatıb.

Müdafiə Nazirliyi xəbər verir ki, hər üç ölkənin hərbi qulluqçuları və aidiyyəti dövlət qurumlarının nümayəndələri Vaziani təlim mərkəzində strateji əhəmiyyətli, regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə tapşırıqları yerinə yetiriblər.

İştirakçı ölkələrin silahlı qüvvələri arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və uzlaşmanın təmin edilməsi məqsədilə keçirilən təlimdə iştirakçılar yüksək peşəkarlıq nümayiş etdiriblər.



## Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

Sentyabrın 28-i saat 23:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Keşişkənd rayonunun Almalı yaşayış məntəqəsi istiqamətindəki mövqelərindən ordumuzun Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Yuxarı Buzqov yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

## Azərbaycanın istehsal etdiyi, şərti adı "Turan 1" olan silah ilk dəfə "ADEX-2024" sərgisində nümayiş etdirilib



Azərbaycanın istehsal etdiyi, şərti adı "Turan 1" olan silah ilk dəfə "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində nümayiş etdirilib.

Bununla bağlı AZƏRTAC-a "Ush Security" şirkətinin nümayəndələri məlumat veriblər.

Bildirilib ki, silah yerli mühəndislər tərəfindən hazırlanıb və 2024-cü ildə istehsal olunub. Çəkisi 3 kiloqram 600 qram olan silahın vuruş məsafəsi 1000 metr, daraq tutumu 30 gülləlikdir. Müasir sistem orijinal standartlara uyğun olaraq hazırlanıb və sərgidə ilk dəfə nümayiş olunur. Silah sınaq testlərindən keçib, lakin hələ istifadə olunmayıb.

# Tarixi Zəfər Ulu Öndər Heydər Əliyev ideyasının təntənəsi oldu

(Əvvəli 1-ci səhifədə)



### Beynəlxalq münasibətlər, diplomatiya və strateji tərəfdaşlıqlar

Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin həlli istiqamətində Ulu Öndər təkcə hərbi güclə deyil, həm də beynəlxalq aləmdə Azərbaycanın haqlı mövqeyini gücləndirməklə diplomatik mübarizə aparırdı. Ulu Öndər regionun aparıcı dövlətləri və beynəlxalq təşkilatlarla səmərəli əlaqələr quraraq, torpaqlarımızın azad olunması məsələsinin beynəlxalq səviyyədə qəbul olunmasına nail olmuşdu.

Dahi şəxsiyyət Heydər Əliyev ərazilərimizin işğaldan azad olunması məsələsini diplomatik müstəviyə çıxararaq, Ermənistanı sülhə məcbur etməyə çalışırdı. Beynəlxalq miqyasda aparılan uğurlu siyasət Ermənistanı təcrid vəziyyətinə salaraq, Azərbaycanın mövqeyini gücləndirdi. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət Ulu Öndər Heydər Əliyevin qoyduğu strateji xəttin davamı kimi qiymətləndirilir.

### Zəfər yolunda İlham Əliyevin liderliyi

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu milli ordu quruculuğu və strateji dövlətçilik xətti 2020-ci ildə Vətən müharibəsində Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə böyük zəfərlə başa çatdı. İkinci Qarabağ müharibəsi Ulu Öndər Heydər Əliyevin siyasi irsinin, xüsusilə hərbi və diplomatik uğurların məntiqi nəticəsi kimi tarixi bir dönüş nöqtəsi oldu. Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli liderliyi və Azərbaycanın hərbi-strateji üstünlüyü ərazilərimizin işğalda tam azad olunmasına gətirib çıxardı.

44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qələbəsi dahi rəhbər Heydər Əliyev ideyasının təntənəsi, onun qoyduğu dövlətçilik və milli birlik xəttinin parlaq zəfəridir. Bu Zəfər Ulu Öndərin Azərbaycan xalqına və dövlətinə bəxş etdiyi sabitliyin və gücün, illər boyu qurulan dövlətin qüdrətinin nəticəsidir.

### Şanlı Zəfər - Azərbaycan xalqının əbədi qüruru

Vətən müharibəsində qazandığımız Zəfər Azərbaycan xalqının həm hərbi, həm də mənəvi gücünün göstəricisidir. Bu Zəfər xalqımızın torpaqlarımızın işğaldan azad olunması uğrunda apardığı mübarizənin, dövlətimizin milli birliyinin və iradəsinin ən böyük təntənəsidir. Azərbaycanın hər bir vətəndaşı döyüşlərdə qazanılan qələbələri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli liderliyinin təcəssümü kimi dəyərləndirir.

Şanlı Zəfər Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ideyasının əbədiliyini, onun dövlətçilik xəttinin yenilməzliyini bir daha sübut etdi. Ulu Öndərin qoyduğu təməl üzərində qurulan güclü Azərbaycan qalib bir ölkə olaraq öz gücünü dünyaya nümayiş etdirdi.

Əminik ki, Azərbaycanın gələcək nəsilləri də bu Zəfəri daim qürurla yad edəcək, onu əzəmətli bir irs kimi qoruyub saxlayacaqdır.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# Baş Qərargah rəisi toplanışda iştirak edən komandir və rəis heyəti ilə görüşüb

*Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunda birləşmə komandirləri, müavinləri, əməliyyat və döyüş hazırlığı şöbə (bölmə) rəisləri ilə toplanış keçirilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində toplanışın başa çatması münasibətilə keçirilən buraxılış mərasimində müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və nazirliyin digər rəhbər heyəti iştirak edib.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Baş Qərargah rəisi iştirakçıları müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından salamlayıb, onları toplanışı müvəffəqiyyətlə başa vurmaları münasibətilə təbrik edib, gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıb.

General-polkovnik Kərim Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Ordusunda aparılan islahatlardan danışıb, peşəkar və dövrün tələblərinə uyğun zabit kadrlarının hazırlanmasının prioritet məsələlərdən biri olduğunu qeyd edib.

Müdafiə nazirinin birinci müavini çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə çoxməqsədli JF-17C (Block-III) təyyarələrinin təqdimatının və Bakıda keçirilmiş "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin əhəmiyyətini xüsusi qeyd edib.

Sonda toplanışa cəlb olunmuş və müvəffəqiyyətlə bitirmiş heyətə sertifikatlar təqdim edilib.

# Mühəndis hazırlığı üzrə nümayiş məşğələsi keçirilib

*2024-cü il üçün hazırlıq planına uyğun olaraq, komandir heyəti və onların müavinləri ilə mühəndis hazırlığı üzrə praktiki nümayiş məşğələsi keçirilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, məşğələdə hərbi qulluqçulara istehkam qurğuları, mühəndis maneələri sistemi, müasir mühəndis texnikaları və silahlandırma vasitələri haqqında məlumat verilib.



Həmçinin məşğələdə MEMAT mexaniki minatəmizləmə texnikası ilə ərazilərin mina və partlamamış sursatlardan təmizlənməsi, partlamayan mühəndis maneələrindən keçidlərin açılması, ponton-körpü salmaqla maneələrin keçilməsi üzrə fəaliyyətlər də nümayiş olunub.

Məşğələnin keçirilməsində əsas məqsəd hərbi qulluqçuların mühəndis maneələrinin qurulması və dəf edilməsi üzrə bacarıqlarının, eləcə də mühəndis hazırlığı üzrə biliklərinin təkmilləşdirilməsidir.

# "Məharət-2024" kompüter dəstəkli birgə komanda-qərargah təliminin açılış mərasimi keçirilib

*"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında imzalanan 2024-cü il üçün ikitərəfli əməkdaşlıq Planı"na əsasən, iki ölkə arasında keçirilən "Məharət-2024" kompüter dəstəkli birgə komanda-qərargah təliminin açılış mərasimi olub.*



Müdafiə Nazirliyi xəbər verir ki, açılış mərasimində hər iki ölkənin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Özbəkistan respublikalarının Dövlət himnləri səsləndirilib.



Tədbiri açıq elan edən general-mayor Vüqar Əliverdiyev iştirakçıları və qonaqları salamlayıb.

Bildirilib ki, bu təlim hər iki ölkənin hərbi əməkdaşlığını gücləndirmək və ortaq regional təhlükəsizlik probleminin həllinə birlikdə yanaşmaq məqsədini daşıyan əhəmiyyətli bir addımdır.

Qeyd olunub ki, "Məharət-2024" təliminin əsas məqsədi müttəfiq qüvvələrin koordinasiyasını və effektivliyini artırmaq, strateji tərəfdaşlığımızı inkişaf etdirməkdir.

# Şəhid olan Vətən övladlarının xatirəsi anıldı

*Ötən ilin 19-20 sentyabr tarixlərində Azərbaycan Ordusu tərəfindən Qarabağ bölgəsində həyata keçirilən antiterror əməliyyatında şəhidlik zirvəsinə yüksələn Mikayıl Həmidli, Ramazan Hüseynzadə, Seymur Şabıyev, Məhərrəm Hüseynov, Elməddin Əliyev, Nəcməddin Quliyev və Mirəli Təhmazovun xatirəsinə həsr olunmuş anım mərasimləri keçirildi.*

Mərasimlərdə şəhidlərimizin ailə üzvləri, doğmaları, şəhid ailələri, müharibə veteranları, ictimaiyyətin nümayəndələri, rayon icra strukturunun və hüquq-mühafizə orqanlarının əməkdaşları, təhsil işçiləri, məktəblilər, eləcə də digər qonaqlar iştirak edirdilər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra şəhidlərimizin şərəfli həyat və döyüş yoluna həsr olunmuş videoçarx nümayiş olundu.

* * *





Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin kitabxanasında keçirilən anım mərasimində çıxış edən Səbail rayon MKS-nın kitabxanasının şöbə müdiri Cəmilə Səmədova Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qüdrəti, peşəkarlığı nəticəsində 30 ilə yaxın müddətdə düşmən işğalında qalmış torpaqlarımızın azad olunmasından danışdı. "Ötən il keçirilən antiterror əməliyyatı ilə respublikamızın suverenliyi və ərazi bütövlüyü tam bərpa olundu. Bu gün işğaldan azad edilmiş şəhər, rayon və qəsəbələrimizdə üçrəngli Azərbaycan bayrağı qürurla dalğalanır. Sevincli anlar yaşayırıq. Bu qüruru, bu iftixar hissini bizə qanları ilə tarix yazan oğullarımız bəxş ediblər. Kitabxanamızda şəhidlərimizin xatirəsinə həsr olunmuş anım mərasimləri keçirir, məktəblilərin iştirakı ilə ədəbi-bədii kompozisiyalar təşkil edirik. Bu istiqamətdə geniş fəaliyyət planlarımız var. Gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin daha da artırılmasında mədəni-kütləvi tədbirlərin rolu böyükdür. Mütəmadi olaraq müharibə iştirakçıları və döyüşlərdə yaralananlar, şəhid ailələri ilə məktəblilərin, tələbələrin görüşlərini keçiririk. Şəhidlərimizin xatirəsini yaşatmaq hər birimizin borcudur".

Digər çıxış edənlər 44 günlük Vətən müharibəsi və 2023-cü il 19-20 sentyabr tarixlərində keçirilən antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyünün tam bərpa edilməsindən, şəhidlərimizin Vətən, torpaq sevgisindən, torpaqlarımızın erməni silahlı birləşmələrinin işğalından azad edilməsindən danışdılar.

Şəhid polkovnik-leytenant Əkrəm Şadmanovun həyat yoldaşı Gülşən Rəhimova çıxış edərək bildirdi ki, şəhid övladları Vətənə əmanətdirlər. "Xalqımızın xoşbəxt gələcəyi, övladlarımızın əmin-amanlıq şəraitində böyüməsi üçün şəhidlərimiz canlarını Vətən uğrunda fəda etdilər. Bu gün ruhunun işığına toplaşdığımız Mikayıl Həmidli şəhidlik zirvəsinə yüksəldikdən sonra onun bir oğul övladı dünyaya gəldi. Mikayılın övladı bütün şəhid balaları kimi Vətənimizə yadigar qaldı".

44 günlük Vətən müharibəsində Suqovuşan, Talışkənd, Ağdərə, Füzuli istiqamətində gedən döyüşlərdə cəsarətlə döyüşən Mikayıl Həmidli Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Ötən il 19-20 sentyabr tarixlərində həyata keçirilmiş antiterror əməliyyatı zamanı Ağdamın Papravənd kəndi istiqamətində gedən döyüşlərdə şəhid olan kiçik leytenant Həmidli Mikayıl Vüqar oğlu ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamlarına əsasən, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalına layiq görülüb.

Sonda şəhidin anası Lalə Həmidova şəhid ailələrinə göstərilən diqqət və qayğıya, övladının adının daima uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını ifadə etdi.

(Ardı 8-ci səhifədə)

# Mətin döyüşçü, igid kəşfiyyatçı

*Vətən uğrunda şəhidlik zirvəsinə ucalanlardan biri də 1992-ci ildə anadan olmuş Fərid Şabanov körpə yaşlarından vətənpərvərlik ruhunda tərbiyə alıb. Valideynləri də həmişə onun Vətənə, xalqa layiq övlad olmasını arzulayıblar. Bütün bunlar barədə Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkil etdiyi anım mərasimində ətraflı bəhs olundu. Mərasimdə şəhidin ailə üzvləri, ictimaiyyətin nümayəndələri, Vətən müharibəsi iştirakçıları, hərbi qulluqçular iştirak etdilər.*





Tarixi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü, suverenliyi uğrunda şəhid olanların xatirəsi ehtiramla yad olundu.

Mərkəzin əməkdaşları Vətənimizin ərazi bütövlüyü, suverenliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Fərid Akif oğlu Şabanovun Vətənə, xalqa nümunəvi xidməti haqqında məlumat verdilər. Qeyd olundu ki, Fərid Şabanov Gəncə şəhəri 18 saylı tam orta məktəbdə təhsil alıb. Məktəbin nümunəvi şagirdlərindən olub. Vətənpərvər gənc kimi formalaşıb. Hərbi hazırlıq dərslərində daha çox fərqlənib. Məktəblər arasında keçirilən "Şahin" hərbi-idman oyunlarının qaliblər sırasında yer tutub. Təhsil aldığı məktəbin şərəfini qoruyub. Milli qəhrəmanların, şəhidlərin xatirə gecələrinin keçirilməsində, təşkilində fəal iştirak edib. Vətənin qəhrəman övladlarının davamçılarından olacağını bildirib. 2012-ci ildə hərbi xidmətə çağırılıb. Ailənin yeganə övladı olan Fəridi valideynləri hərbi xidmətə yola salıblar. O, "N" hərbi hissəsində xidmətə başlayıb. Gənc əsgər kimi Hərbi Andı qəbul edərək Vətənə, xalqa sədaqətli olacağını, lazım gələrsə, Vətən uğrunda canını, qanını belə əsirgəməyəcəyini qətiyyətlə bildirib. Çox keçmir ki, o, nümunəvi əsgər kimi tanınır. Komandirlərinin də etimadını qazanır. Xidmətindən bir müddət sonra Fəridi manqa komandiri təyin edirlər. Müddətli həqiqi hərbi xidmətdə olarkən Şabanovlar ailəsinə komandanlıq tərəfindən də təşəkkür məktubu ünvanlanıb. Mərd, cəsarətli, vətənsevər oğul böyütdüklərinə görə onlara komandanlıq tərəfindən minnətdarlıq ifadə olunub. Müddətli hərbi xidməti başa vurub müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmək qərarına gəlir. Beləliklə, o, tərxis olunandan sonra müvafiq sənədlərlə "N" hərbi hissə komandanlığına müraciət edir. Müvafiq təlim kursu keçdikdən sonra hərbi xidmətə yollanır. Cəbhə bölgəsində yerləşən hərbi hissədə Fərid Şabanov xidmətini uğurla davam etdirir. Xidməti vəzifəsinin öhdəsindən bacarıqla gəlir, yüksək vətənpərvərlik nümayiş etdirir. Qarşıya qoyulan döyüş tapşırıqları uğurla icra olunur. Növbəti əməliyyat zamanı Fərid düşmən gülləsinə tuş gəlir və şəhidlik zirvəsinə ucalır. Onu Gəncə şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırırlar. Fəridin unudulmaz xatirəsi təkcə bizim yox, xalqımızın qəlbində əbədi yaşayacaq.



Sonra hərbi qulluqçular Vətənimizin tarixinə Zəfər salnaməsi yazan Vətən fədailərinin göstərdikləri rəşadətlərdən, vətənpərvərliklərdən, döyüş meydanındakı igidliklərdən danışdılar. Bildirdilər ki, şanlı ordumuz Vətən uğrunda şəhidlik zirvəsinə ucalanların döyüş meydanlarında qisasını alaraq onların böyük arzularını, amallarını gerçəkləşdirdi. Vətən torpaqlarını işğalçılardan azad edərək ölkəmizin ərazi bütövlüyünü, suverenliyini tam bərpa etdilər. Xalqımız dünyada tarixi ədaləti bərpa edən qəhrəman xalq kimi tanındı.

Mərkəzin əməkdaşları Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən şəhid ailələrinə, döyüşlərdə yaralananlara göstərilən diqqət və qayğıdan danışdılar.

Şəhid anası Qətibə Şabanova göstərilən diqqət və qayğıya görə dövlət başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirdi.

Tədbir iştirakçıları Şəhidlər xiyabanında Fərid Şabanovun məzarını ziyarət edərək, xatirəsini ehtiramla yad etdilər.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# “ADEX-2024” 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi müxtəlif region və dövlətləri birləşdirən körpüdür




Beynəlxalq Müdafiə Sərgisi təkcə silah və texnologiya sahəsində ən son nailiyyətlərin nümayişi deyil, həm də ölkələr arasında uzunmüddətli əməkdaşlığın əsaslarının qoyulduğu platformadır. Artan qlobal təhdidlər və qeyri-sabitlik kontekstində belə tədbirlər qlobal təhlükəsizliyin və dövlətlər arasında davamlı dialoqun təmin edilməsində əsas rol oynayır. "ADEX" və buna bənzər digər sərgilərdə ölkələr təkcə müdafiə sənayesi sahəsində öz qabaqcıl inkişaflarını təqdim etmir, həm də fəal şəkildə təcrübə mübadiləsi aparır, birgə strategiya və yanaşmaları müzakirə edirlər. Bu da öz növbəsində, tərəfdaşlığı gücləndirmək və beynəlxalq sabitliyə şərait yaratmaq üçün unikal imkanlar yaradır. Belə sərgilərin əhəmiyyətini anlamaq çətin deyil: iştirakçılar texnologiyanın inkişafına töhfə verir, gələcək üçün ümumi fəaliyyət planlarını formalaşdırır ki, bu da onları qlobal təhlükəsizlik sisteminin ayrılmaz elementinə çevirir.

Beynəlxalq müdafiə sərgilərinin kibertəhlükəsizlik, terrorizm və regional münaqişələr kimi müasir dövrün çağırışlarının kontekstində xüsusi əhəmiyyət kəsb etdiyi də göz önündədir. Texnologiyalar sürətlə inkişaf edərkən, ən mühüm problem onların ümumi müdafiə və təhlükəsizlik sistemlərinə inteqrasiyasıdır. Belə tədbirlərdə iştirakçılar nəinki nailiyyətlərini nümayiş etdirə, həm də birgə fəaliyyətin effektivliyini artırmaq yolları barədə fikir mübadiləsi apara bilirlər. Bu, xüsusilə müdafiə qabiliyyətini gücləndirmək və tərəfdaşlarla əlaqə qurmaq istəyən ölkələr üçün doğru seçimdir. Təbii ki, sərginin əsas məqsədlərindən biri də bilik və texnologiyaların mübadiləsinə şərait yaratmaqdır. Bəzi ölkələr qabaqcıl müdafiə sistemlərinin hazırlanmasında daha çox ixtisaslaşsa da, bəzi ölkələr də onların tətbiqi və istismarı üzrə təcrübə təklif edə bilərlər. Bu cür mübadilə ölkələrə öz resurslarını optimallaşdırmağa və beynəlxalq arenada daha böyük uğurlar əldə etməyə imkan verir. Bu görüşlərdən irəli gələn birgə layihələr və tədqiqatlar qlobal təhlükəsizliyə daha da töhfə verəcək texnoloji nailiyyətlər üçün əsasdır. Bundan əlavə, sərgi özəl şirkətlər və dövlət səviyyəsində müdafiə sistemində fəaliyyət göstərən idarələr arasında da dialoq platformasına çevrilir. Dövlət liderləri, ordu rəhbərlikləri, hərbi ekspertlər və müdafiə şirkətlərinin nümayəndələri bir-birilərinin ehtiyaclarını və prioritetləri müzakirə edirlər. Bu, beynəlxalq birliyin üzvləri arasında daha dərin anlaşma yaratmaqla yeni ittifaqlar qurmağa, mövcud olanları isə gücləndirməyə kömək edir. Bir sözlə, Beynəlxalq Müdafiə Sərgisi müxtəlif region və dövlətləri birləşdirən körpü rolunu oynayır, təhlükəsizlik təkcə texniki aspektlərini deyil, həm də sabitliyə təsir edən siyasi, iqtisadi və sosial amilləri müzakirə etmək imkanı verir.




Bu tipli sərgilərin əsas nəticələrindən biri təkcə bağlanmış müqavilə və sazişlər deyil, həm də qlobal tendensiyaların daha dərindən dərk edilməsidir. Dünyanın müxtəlif yerlərindən olan nümayəndələrin iştirakı innovativ ideya və yanaşmaların mübadiləsinə şərait yaradır ki, bu da süni intellekt, pilotsuz uçuş aparatları və avtonom idarəetmə sistemləri kimi sahələrin ön plana çıxdığı bir dövrdə xüsusilə vacibdir.

Beləliklə, beynəlxalq müdafiə sərgisi təkcə müasir texnologiyaların nümayişi deyil, həm də ölkələr arasında dialoq, etimad və əməkdaşlığın qurulması üçün mühüm vasitədir. Qarşılıqlı anlaşmanın gücləndirilməsinə, innovativ həllərin hazırlanmasına və uzunmüddətli strateji əməkdaşlıq üçün platformaların yaradılmasına kömək edir ki, bu da son nəticədə qlobal təhlükəsizliyin möhkəmləndirilməsinə böyük töhfə verir.

Bu baxımdan, cari ilin sentyabr ayının 24-26 tarixlərində Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi regionda müdafiə və təhlükəsizlik məsələlərinin müzakirəsi üçün aparıcı platformalardan biri kimi mövqeyini möhkəmləndirdi. Son illər sərgi təkcə Cənubi Qafqaz üçün deyil, həm də Mərkəzi Asiya, Yaxın Şərq və Avropa dövlətləri üçün mühüm tədbir kimi qabaqcıl texnologiyalar, təcrübə və strategiyaların mübadiləsi mərkəzinə çevrilib. "ADEX-2024" qlobal səviyyədə ölkələr arasında qarşılıqlı fəaliyyət üçün unikal imkanlar təklif edərək, xüsusilə müasir geosiyasi dəyişikliklər fonunda əhəmiyyətli oldu.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin dəstəyi ilə təşkil olunan sərgi dünyanın müxtəlif ölkələrindən aparıcı müdafiə şirkətlərini, hökumət nümayəndə heyətlərini və ekspertlərini yenidən bir araya gətirdi. Bu il kibertəhlükəsizlik, pilotsuz sistemlər sahəsində innovasiyalara, eləcə də mövcud müdafiə texnologiyalarının modernləşdirilməsinə xüsusi diqqət yetirildi. Sərgi iştirakçıları həm dünyanın aparıcı istehsalçıları, həm də Azərbaycanın müdafiə sənayesi müəssisələri tərəfindən istehsalın lokallaşdırılmasına və öz həllərinin işlənib hazırlanmasına heyranedici uğurlar nümayiş etdirən ən son silah və hərbi texnika nümunələrini görə bildilər.

Sentyabrın 24-dən 26-dək keçirilən "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin açılış mərasimi yüksək səviyyəli qonaqları bir araya topladı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisi ilə tanış oldu.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə sənayesi naziri Vüqar Mustafayev dövlətimizin başçısına sərgilər haqqında məlumat verdilər.




Tədbirdə hər kəs "ADEX"-in təhlükəsizlik sahəsində dialoq və əməkdaşlıq platforması kimi əhəmiyyətini vurğuladı. Bu gün yeni çağırışlar qarşısında regionumuzda və onun hüdudlarından kənarda sülhün və sabitliyin təmin edilməsi üçün ölkələr birgə işləməli, təcrübə və innovasiyalar mübadiləsi aparmalıdırlar. Bunun üçün isə "ADEX"-in və buna bənzər digər tədbirlərin müstəsna rol oynadığı xüsusi qeyd olundu.

Rəsmi hissədən sonra sərginin qonaqları stendlərlə tanış olmaq imkanı əldə etdilər. Bu il sərginin keçirilmə ərazisi daha da genişlənmişdi ki, bu da yeni məhsulların tanıtımına imkan yaratdı. Bakı Ekspo Mərkəzinin yeni istifadəyə verilmiş 4-cü zalı da daxil olmaqla, qapalı sahəsi və açıq havada stendlər quruldu. Sərgidə nümayiş olunan ekspozisiyalar ilə tanışlıq zamanı öyrəndik ki, “ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi 40 ölkədən 218-dək şirkətin iştirakı ilə keçirildi. Bu ölkələr arasında Azərbaycan, Türkiyə, ABŞ, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Bolqarıstan, Böyük Britaniya, Çexiya, İspaniya, İsrail, İtaliya, Litva, Macarıstan, Pakistan, Qətər, Rusiya, Serbiya, Sinqapur, Slovakiya, Ukrayna və digər ölkələr iştirak etdilər. Bundan başqa, Beynəlxalq sərgi Macarıstan, Qətər, Sinqapur və Slovakiya simasında yeni iştirakçı ölkələri də qarşıladı.




Bundan öncə keçirilən "ADEX" sərgiləri kimi, yubiley sərgisinə də dünyanın 27 ölkəsindən 53 yüksək səviyyəli və 300-dən çox rəsmi nümayəndə heyəti qatıldı.

Regionda müdafiə sənayesinə həsr edilmiş ən nəhəng tədbir olan "ADEX-2024"-də ilk dəfə olaraq Azərbaycan Respublikası Müdafiə Nazirliyinin stendi təqdim olundu. Burada Azərbaycan Ordusunun silahlanmasında olan müasir silah sistemləri, habelə Xüsusi Təyinatlı Qüvvələrin təchizat vasitələri nümayiş olundu. Eyni zamanda, sərgidə Müdafiə Nazirliyinin tabeliyində olan təmir müəssisələrinin imkanları da təqdim edildi. Həmçinin iştirakçılara Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələri barədə ətraflı məlumat verildi.

Vətənimizin müdafiəsinin təmin edilməsində mühüm rol oynayan müdafiə təyinatlı məmulatların, döyüş sursatlarının, zirehli hərbi texnika və digər vasitələrin istehsalı, təkmilləşdirilməsi, təmiri, utilizasiyası, idxal-ixracına və xarici bazarlarda satışına cavabdeh olan Müdafiə Sənayesi Nazirliyinin pavilyonları da hər kəsin diqqətini özünə çəkməyi bacardı. Son illərdə ölkəmiz tərəfindən istehsal edilən yüngül və ağır hərbi texnikalar nümayişə çıxarıldı. Çoxməqsədli, kəşfiyyat və zərbə pilotsuz uçuş aparatları, müxtəlif çaplı atıcı silahlar, döyüş kəşfiyyat, mühəndis və digər hərbi təyinatlı texnikalar sərginin maraq doğuran eksponatları sırasında idi.

"Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin stendləri də iştirakçıların marağına səbəb oldu. Burada müxtəlif növ atıcı silahlar, snayper tüfəngləri, minaatanlar, kiçikçaplı patronlar, müxtəlif növ mərmilər, zirehli dəbilqə və gödəkçələr, optik nişangah və cihazlar nümayiş olundu. Qonaqlara ilk dəfə bu sərgidə nümayiş olunan snayper tüfəngləri də təqdim olundu. Qeyd edildi ki, çəkisi 3.8 kq və güllə tutumu 10 ədəd olan YST-24 və YST-24M texniki adları altında 7,62x54 mm-lik "BOZQURD R" və 7,62x51 mm-lik "BOZQURD V" silah nümunələri 1200 metr məsafədə düşmənin canlı qüvvəsini yüksək dəqiqliklə məhv etməyə qadirdir.

"ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində təhsil müəssisələrinə məxsus stendlər olan ərazidə Milli Müdafiə Universitetinin stendi də nümayiş olundu. Burada 2022-ci ildə Bakıda keçirilən "Teknofest Azərbaycan" Aerokosmik və Texnologiya festivalında "Pilotsuz Uçuş Aparatları" müsabiqəsinin "B" kateqoriyası üzrə 3-cü yerə layiq görülən Heydər Əliyev adına Hərbi İnstitutun kursantlarının hazırladığı "Xilaskar" pilotsuz uçuş aparatı da təqdim olundu. Bundan başqa, minaaşkarlayan çəkmələr də qonaqlar tərəfindən maraqla qarşılandı. Qeyd edildi ki, gələcək üçün bu çəkmələr daha da inkişaf etdirilərək hərbi qulluqçuların mina təhlükəsindən qorunmasına böyük fayda verəcək.

**(Ardı 5-ci səhifədə)**

# “ADEX-2024” 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi müxtəlif region və dövlətləri birləşdirən körpüdür



**(Əvvəli 4-cü səhifədə)**

Sərgidə həm də Azərbaycan Hərb Tarixi Muzeyi "Zəfərimiz - Anbaan!" ekspozisiyası ilə iştirak etdi. İştirakçılar tərəfindən böyük maraqla qarşılanan bu ekspozisiya 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun şanlı qələbəsinə həsr edilmişdi. Vətən müharibəsini və vətənpərvərliyi tərənnüm edən rəsmlərdən ibarət olan əsas bölmə azərbaycanlı rəssamların yağlı boya ilə Zəfərimizə həsr etdikləri əsərlərindən ibarət idi. "Şuşa zəfəri", "Şuşa döyüşündən bir an", "Qarabağ Azərbaycandır!", "Zəfər paradı" adlı kətan üzərində rəsmlər də sərgi iştirakçılarının diqqətini cəlb etdi.

Sərgidə, həmçinin Azərbaycan Ordusunun tarixən istifadə etdiyi hərbi geyim nümunələri nümayiş olunaraq, ekspozisiyanın əməkdaşları tərəfindən "Azərbaycanda 1918-2024-cü illərdə hərbi geyimlərin təkamülü" adlı altında təqdimat keçirildi.

Builki sərgidə ordumuzun geyim formaları, qida təminatı və müasir döyüş texnologiyaları mövzusunda təqdim olunan stendlər xüsusi diqqət cəlb etdi. Fürsətdən istifadə edib nümayiş olunan məhsullar ilə yaxından tanış olduq.

Sərgidə "Q-STP MMC"-nin stendində hərbi geyimlər barəsində şirkətin nümayəndəsi Sərvan Əmirov məlumat verdi. O, təqdim edilən geyim formalarının hərbçilərimizin rahatlığının nəzərə alınaraq, müasir dövrün tələblərinə uyğun hazırlandığını qeyd etdi.

Sərgidəki digər diqqət çəkən stend isə Azərsun Holdinqin təqdim etdiyi, hazırda Azərbaycan Ordusunun hərbi qulluqçularının təmin olunduğu quru qida məhsulları idi. Şirkətin nümayəndəsi Seymur Cəfərov təqdim edilən "Əsgər payı" quru qida qutusunda olan qidalar barədə geniş məlumat verdi.

"Gördüyünüz "Əsgər payı" qutuları döyüş və təlimlər zamanı istifadə olunmaq üçün yüksək enerji dəyərinə malik qidalardan ibarətdir. Burada müxtəlif konservləşdirilmiş yeməklər var. Bu yeməklər uzun müddət saxlanıla bilən məhsullardır. Məsələn, mal, toyuq, balıq əti, tərəvəz və digər qida məhsullarının konservləşdirilməsi ilə hazırlanmış yeməklər həm dadlı, həm də qidalandırıcıdır. Qida təminatı yalnız enerji ilə deyil, eyni zamanda, sağlamlıqla bağlıdır. Biz keyfiyyətli ərzaqlardan istifadə edərək, hərbçilərimizin qidalanma ehtiyaclarını qarşılayırıq", - deyə nümayəndə bildirdi.

Digər stenddə yerli istehsal olan aviasiya bombalarının gövdələrinin, həmçinin top mərmilərinin istehsalının planlaşdırıldığı da bildirildi. Bu təşəbbüs Azərbaycanın müdafiə sənayesinin inkişafına və yerli istehsalın artırılmasına yönəldilmiş müsbət bir addımdır. Stend barədə məlumat verərkən bu istehsalın hərbi aviasiyanın effektivliyini artırmağa və müstəqil istehsal qabiliyyətini gücləndirməyə xidmət etdiyini qeyd etdilər.



Müasir döyüş texnologiyalarının nümayiş etdirildiyi “MİRAS” stendinə yaxınlaşdıq. Bu stenddə təqdim olunan yerli istehsal məsafədən idarəolunan modul müasir döyüş şəraitində mühüm bir innovasiyadır. Modul döyüş bölgəsində təhlükəsizliyi artırmaq və əməliyyatların səmərəliliyini yüksəltmək məqsədi güdür. Nümayəndələr bu modulun operativ məlumatların toplanması, döyüş sahəsinin izlənməsi və düşmən mövqelərinin dəqiq analizinə imkan verdiyini vurğuladılar. Həmçinin modulun müasir sensorlar və kameralarla təchiz olunduğu, real vaxt rejimində görüntü təqdim etdiyi qeyd edildi. MİRAS stendinin nümayəndəsi bu texnologiyanın həm müdafiə, həm də hücum əməliyyatlarında istifadə oluna biləcəyini vurğuladı. Stenddə, eyni zamanda, təlim poliqonlarında atış çalışmaları zamanı istifadə olunan hədəflərin nümayişi də diqqət çəkdi. Qeyd olundu ki, bu hədəflər Əlahiddə Ümumqoşun Ordunun bəzi hərbi hissələrinin təlim poliqonlarında istifadə olunur. Bu hədəflər hərbi qulluqçuların atəş bacarıqlarını artırmaq, real döyüş şəraitində özlərini sınamağa imkan tanımaq məqsədi güdür.

Bundan başqa, sərgidə aviatəmir zavodlarımız da önəmli nümayişlər təşkil etdilər. Burada aviasiya vasitəsinin müxtəlif hissələrinin təmir olunması barədə məlumat verildi. Zavodların nümayəndələri helikopter və təyyarələrin müasir döyüş şəraitində istifadə olunduğunu, eyni zamanda, onların mütəmadi olaraq texniki baxışdan keçdiyini qeyd etdilər. Hərbi aviasiya vasitələri müxtəlif döyüş və nəqliyyat missiyalarında istifadə olunur, bu səbəbdən onların etibarlılığı və performansı ordumuzun döyüş hazırlığı üçün mühüm əhəmiyyət daşıyır.

Təbii ki, ölkəmiz üçün bu cür önəmli beynəlxalq tədbirdə qardaş Türkiyə ən çox şirkətlərlə təmsil olunan ölkələrdən biri oldu. Diqqətimizi cəlb edən ilk şirkətlərdən biri də məhz "Baykar" şirkəti idi.

1986-cı ildən fəaliyyət göstərən bu şirkət Azərbaycanda da geniş şöhrət qazanıb. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun arsenalında olan "Bayraktar" pilotsuz uçuş aparatları (PUA) hava şəraitindən asılı olmayaraq düşmənin döyüş texnikalarını, canlı qüvvəsini yüksək dəqiqliklə məhv etdi, əməliyyat şəraitində üstünlüyə sahib olmağımız üçün şərait yaratdı. Vətən müharibəsində olduqca mükəmməl, dəqiq, müasir pilotsuz uçuş aparatı olan "Bayraktar"ın da, onu idarə edən qəhrəman Azərbaycan hərbçilərinin də nəyə qadir olduğunu bütün dünya gördü. Sərgidə nümayiş etdirilən foto və video kadrlar, kataloqlar və açıq havada təqdim olunan "Baykar" şirkətinin "Akıncı", "Bayraktar TB2" və "Bayraktar KALKAN" PUA-ları hamının marağına səbəb oldu.



"ADEX-2024" sərgisində dünyaca məşhur daha bir türk şirkəti "Roketsan" oldu. Qeyd edək ki, bu şirkət 1988-ci ildə qurulduğu üçün uzun illərdir ki, bu sahəyə marağı olan insanlar tərəfindən sevilərək tanınır. “Roketsan” şirkətinin stendində müxtəlif növ raketlər, reaktiv silahlar, atış və hərəkət sistemləri ilə birlikdə idarə olunan döyüş sursatları, habelə istiqamətləndirmə-idarəetmə sistemləri təqdim edilirdi.



İndiyədək keçirilən bütün "ADEX" sərgilərinin iştirakçısı olan Türkiyənin "Aselsan" şirkəti "ADEX-2024"-də də iştirak etdi. Artıq beşinci dəfədir ki, Azərbaycanda keçirilən Beynəlxalq Müdafiə Sərgisində iştirak etməsinə baxmayaraq, hələ də qonaqları yeni texnologiyalar ilə xoş mənada təəccübləndirən "Aselsan" əsasən elektronika, aviasiya, silah, radar və optik, telekommunikasiya sistemləri, informasiya texnologiyaları və müdafiə sənayesi ilə əlaqədar digər texnoloji məhsullar istehsal edir.

Sözsüz ki, Rusiya Federasiyası da "ADEX-2024" sərgisində ən çox şirkətlə təmsil olunan ölkələrdən biri oldu. Rusiya tərəfindən sərgidə müdafiə sahəsi ilə bağlı məhsulların, xidmətlərin və texnologiyaların tam çeşidinin ixracı üzrə fəaliyyət göstərən yeganə dövlət agentliyi "Rosoboronexport" oldu. Sirr deyil ki, qlobal silah bazarında liderlərdən biri sayılan "Rosoboronexport" Rusiyanın bu sahədə məhsul ixracının 85 faizdən çoxunu öz üzərinə götürür. Stenddə şirkətin nəzdində fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal edilən məhsullar təqdim olunurdu.

Bundan başqa, sərgidə bütün dünyaya tanınan Rusiyanın "Kalaşnikov" şirkətinin stendi ilə də qarşılaşdıq. Hər birimiz tərəfindən adı duyulan şirkət yeni və müasir dövrə uyğun modifikasiya olunmuş silahlarını nümayiş etdirdi.

Sərgidə Qardaş Türkiyənin "Dearsan Shipyard", "Turkish Aerospace", "REPKON", "Meteksan", İsrailin "Uvision", "Aeronautics Defense Systems", "RAFAEL", Belarusun "Belspetsvneştexnika", Ukraynanın "Müdafiə Sənayesi Müəssisələrinin Milli Assosiasiyası" ("NAUDI"), Serbiyanın "Yugoimport-SDPR", Çinin "Dəqiq Avadanlıqların İdxalı və İxracı üzrə Çin Milli Korporasiyası" ("CPMIEC"), Birləşmiş Ərəb Əmirliklərinin "EDGE Group", Qətərin "Barzan Holdings" və digər ölkələrdə bir çox şirkətlər təqdim olundu.

Şirkətlərin nümayəndələri potensial müştərilərə dövrün çağırışları, yaratdığı problemlərə öz həlli yollarının imkanlarını nümayiş etdirərək fəal şəkildə təqdimatlar etdilər. İnteraktiv nümayişlər isə xüsusi diqqət çəkdi. Ziyarətçilər fəaliyyətdə olan taktiki sistemlərlə tanış ola, hətta nümayiş etdirilən nümunələrdən bəzilərini idarə və ya istifadə edə bilirdilər. Bu yanaşma təkcə texnologiyaları təqdim etməyə deyil, həm də iştirakçılar üçün unikal təcrübə yaratmağa imkan verdi.

"ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi təkcə müdafiə texnologiyaları sahəsində əldə olunan nailiyyətləri deyil, həm də təhlükəsizliyin və sabitliyin təmin edilməsi üçün beynəlxalq əməkdaşlığın zəruriliyini nümayiş etdirdi. İştirakçıların həvəsinə nəzər saldıqda əminliklə deyə bilərik ki, "ADEX" gələcəkdə də ölkələr arasında müdafiə sahəsində tərəfdaşlıq əlaqələrinin möhkəmlənməsinə töhfə verən ideya, texnologiya və təcrübə mübadiləsi üçün mühüm platforma olmaqda davam edəcək.

Yekun olaraq qeyd edək ki, "ADEX-2024" sərgisi müdafiə və təhlükəsizlik sahəsində gələcək inkişaf və əməkdaşlıq üçün yeni üfüqlər açır. Bu tədbir Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsində, Vətənimizin dünya dövlətləri və şirkətləri ilə fəal dialoqa və əməkdaşlığa hazır olduğunun nümayiş etdirilməsində mühüm addımdır. Yubiley sərgisi kibertəhlükələr, regional münaqişələr və dünyada dəyişən strateji vəziyyətlər kimi yeni geosiyasi çağırışlar fonunda qarşılıqlı fəaliyyətin vacibliyini vurğulayır. Təhlükəsizlik və sabitliyin bütün ölkələr üçün əsas prioritetə çevrildiyi müasir şəraitdə bu kimi tədbirlər təkcə müdafiənin texniki aspektlərinin deyil, həm də beynəlxalq münasibətlərə təsir edən siyasi, iqtisadi və sosial amillərin müzakirəsi üçün mühüm platforma yaradır.

**Baş leytenant
Oruc MUSTAFAYEV,
baş leytenant
İbrahim MƏMMƏDBƏYOV
"Azərbaycan Ordusu"**

# Antiterror əməliyyatı bütün Qafqazda dayanıqlı sülhə, əmin-amanlığa və təhlükəsizliyə misilsiz töhfə verən tarixi missiya idi



Dövlətimizin suverenliyinin, ərazi bütövlüyünün tam bərpası, ərazilərimizdə erməni separatizminin kökünün kəsilməsi ilə nəticələnən uğurlu antiterror əməliyyatının başa çatmasından bir il ötdü. Qısa müddətdə, yüksək peşəkarlıqla həyata keçirilən antiterror əməliyyatından bir neçə məqamı xüsusi olaraq qeyd etmək lazımdır: Əməliyyatın keçirilməsini labüd edən şərait, yaranmış zərurət, peşəkar icra və uğurlu nəticələr!

Müdafiə Nazirliyi indiyədək əməliyyatla bağlı bir çox maraqlı faktları ictimailəşdirib, vacib məqamlar haqqında geniş məlumatlar paylaşıb. Bu tarixi hadisəyə fikir bildirmək, əməliyyatın əhəmiyyəti, nəticələri və s. haqqında mülahizələr oxucularda daha geniş və gerçək düşüncə formalaşdıracaqdır.

Təbii olaraq, ilk növbədə, ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalan soydaşlarımızın xatirəsini bir daha hörmət və ehtiramla anır, onların ailə üzvləri və yaxınlarına səbir, döyüşlərdə yaralanan hərbi qulluqçularımıza isə uca Allahdan şəfa diləyirik.

Uğurlu antiterror əməliyyatı Azərbaycan dövlətinin qələbəsi, xalqımızın haqlı mövqeyinin, tarixi ədalətin, Vətən sevgisinin və döyüşlərdə iştirak edən Silahlı Qüvvələrimizin peşəkarlığının təntənəsi idi. Xüsusi vurğulanmalıdır ki, özündə kapitulyasiya aktını ehtiva edən üçtərəfli Bəyanatın imzalanmasından sonra ötən postmüharibə dövründə Ermənistan təxribatlardan və işğalçılıq siyasətindən əl çəkməyərək sərgilədiyi qeyri-konstruktiv davranışlar antiterror əməliyyatının keçirilməsini labüd etmişdi.

Antiterror əməliyyatını zəruri edən ən əsas şərtlərdən biri də üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması istiqamətində Ermənistan tərəfinin üzərinə götürdüyü öhdəlikləri icra etməkdən müxtəlif bəhanələrlə boyun qaçırması idi. Silahlı birləşmələrinin qalıqlarını Qarabağdan tam həcmdə çıxarmayan Ermənistan tərəfi qeyri-qanuni erməni silahlı dəstələrinin tərk-silah edilməsi ilə bağlı tədbirlər də görmədi. Bu da azmış kimi, hətta Ermənistanın hərbi-siyasi rəhbərliyi dövlət səviyyəsində Qarabağ iqtisadi zonasında beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq mövcud Ermənistan silahlı birləşmələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin təminat məsələlərini həll etmək məqsədilə gizli yollarla qanunsuz daşımalar həyata keçirməkdən əl çəkmirdi. Buna cavab olaraq əvvəlcə ekofəalların iştirakı ilə uzunmüddətli aksiya həyata keçirildi. Lakin bu dinc aksiyaya da düzgün reaksiya verilmədiyini görən dövlətimiz daha ciddi tədbirlərin görülməsi məcburiyyətində qaldı. Ermənilərin təxribatlarına cavab olaraq, qanunsuz hərbi daşımalar həyata keçirmə cəhdlərinin qarşısını almaq məqsədilə 2023-cü il aprelin 23-də Dövlət Sərhəd Xidmətinin və Azərbaycan Ordusu bölmələrinin birgə fəaliyyəti sayəsində Laçın-Xankəndi yolunun başlanğıcında, Həkəri çayı üzərindəki körpüdə sərhəd-buraxılış məntəqəsi quruldu. Nəticədə həmin istiqamətdən bütün hərəkət və daşımaların Azərbaycan Respublikasının qanunlarına müvafiq olaraq həyata keçirilməsi təmin olundu.

Bundan əlavə, Azərbaycan tərəfinin dəfələrlə etdiyi sülh çağırışları, bölgədə dayanıqlı sülh və əmin-amanlığın təmin olunması məqsədilə təcili danışıqlara başlamaq haqqında bəyanatları, eləcə də sülh müqaviləsi imzalamaq haqqında irəli sürdüyü təkliflərin də Ermənistan tərəfindən etinasız qarşılanması, qeyri-adekvat münasibətin sərgilənməsi dövlətimizi 2020-ci ildə olduğu kimi, yenə də tarixi ədalətin bərpası naminə real addımlar atmaq məcburiyyəti qarşısında qoymuşdu.

Digər məqam isə regiondan kənar qüvvələrin, eləcə də havadarlarına arxalanaraq erməni cəmiyyətindəki hələ də revanşist xülyalarla yaşayan bəzi qüvvələrin ölkəmizə qarşı müxtəlif üsullarla təhrikedici fəaliyyətlər yerinə yetirməyə çalışması idi. Amma revanşist erməni təbəqəsi anlamaq istəmirdi ki, regionda artıq yeni reallıqlar yaranıb. Ermənistanın hərbi-siyasi rəhbərliyinin və xülyalarla yaşayan revanşist qüvvələrin bu reallıqla barışmamaq üçün çabalaması Ermənistanı inkişafdan, səmərəli əməkdaşlıqdan və nəhəng layihələrdən təcrid etməkdə davam edir.

Antiterror əməliyyatı ilə bağlı diqqət yetirilməli daha bir maraqlı fakt isə Ermənistan rəhbərliyinin dəstəyi ilə bu ölkənin silahlı qüvvələrinin qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin, eləcə də separatçı rejimin Qarabağ iqtisadi rayonunda genişmiqyaslı təxribatlara zəmin yaratması və təxribat-diversiya aktlarını təşkil etməsidir. Silahlı Qüvvələrimizin keçirdiyi antiterror əməliyyatı üçün zərurət yaradan ən əsas amillərdən biri də ermənilər tərəfindən törədilən bu cür təxribatlar idi. Bu təxribat-diversiya aktları yalnız ordumuzun bölmələrinə deyil, eyni zamanda, azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri aparan mülki şəxslərə və Böyük Qayıdışa dair Dövlət Proqramına müvafiq olaraq, öz doğma yurd yerlərinə dönən dinc sakinlərə qarşı yönəlmişdi. Ermənistan dövlətinin birbaşa dəstəyi və müdaxiləsi ilə Qarabağ iqtisadi zonasında və şərti dövlət sərhədi boyunca atəşkəs rejiminin pozulması hallarını nəzərə almasaq belə, postmüharibə dövründə ən azı 30-a yaxın təxribat-diversiya hadisəsi baş vermişdi. Bütün təxribatların qarşısı həmin istiqamətlərdə dislokasiya edilmiş bölmələrimizin sayıqlığı sayəsində dərhal, qətiyyətlə, adekvat tədbirlər nəticəsində alınmış, ordumuz düşmənə layiqli cavab vermişdi.

Vətən müharibəsindəki qələbəmizdən sonra Azərbaycanın üzləşdiyi ən çətin problemlərdən biri işğal dövründə ermənilər tərəfindən talan edilmiş, viran qoyulmuş yaşayış məntəqələrimizin bərpası idisə, digər çətin məqam - azad edilmiş ərazilərin mina və partlamamış silah-sursatla həddindən artıq çirklənməsi idi. Beləliklə, Ermənistanın xalqımıza qarşı apardığı mina terroru Vətən müharibəsindən sonra da davam etdi. Ermənistan ordusunun qalıqları yenidən minalanma fəaliyyətini həyata keçirirdi. Basdırılan minaların 2021-ci ildə Ermənistanda istehsal olunması, onların əsasən yaşayış məntəqələrində və qəbiristanlıqlara yaxın ərazilərdə, meşələrdə, magistral və təminat yollarında, ümumilikdə 100 km-ə yaxın ərazidə basdırılması bu ölkənin işğalçılıq siyasətinin təzahürü idi. Bu barədə də toplanılmış faktlar, foto-video məlumatlar beynəlxalq ictimaiyyətin diqqətinə dəfələrlə çatdırılıb. Üçtərəfli Bəyanatın imzalanmasından sonra yüzlərlə Azərbaycan vətəndaşı zərər çəkmişdir.

Təbii olaraq Azərbaycan dövləti də öz suveren ərazisində belə bir təhlükəli quldur yuvasının, düşmən ocağının mövcudluğu ilə heç bir vəchlə barışa bilməzdi, barışmadı da. Təəssüf doğuran əsas məqam isə beynəlxalq qurumların bu faktlara laqeyd yanaşması və etinasız qalması idi.

Rəsmi mənbələrə görə 13 istiqamətdə həyata keçirilmiş antiterror əməliyyatının unikallığını əks etdirən bəzi xüsusiyyətlər haqqında qısa olaraq bəhs etmək istərdik. Əməliyyata əvvəlki təcrübələrə əsaslanaraq günorta saatlarında və əlverişsiz hava şəraitində başlanılmaqla həm bölmələrimizin sürətli hərəkət etməsi, həm də düşmənin qəfil yaxalanması təmin edilmiş oldu. Kütləvi artilleriya zərbələrinin dəstəyi ilə irəliləyən bölmələrimiz tərəfindən qısa müddətdə bütün yolların nəzarət altına alınması və əraziyə giriş-çıxışın məhdudlaşdırılması üzrə tapşırıqlar uğurla yerinə yetirilmişdi.

Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin xüsusi göstərişinə əsasən, qarşıya qoyulmuş tapşırıqlar şəxsi heyət tərəfindən minimum itki ilə icra olunub. Tapşırıqların icrası zamanı dəqiq zərbələrlə düşmənin 1761 hədəfi sıradan çıxarılıb. Bölmələrimiz bütün istiqamətlərdə yüksək uğurlar qazanıb. Qısa vaxtda 90-dan çox döyüş mövqeyi düşməndən təmizlənib, 64 döyüş texnikası sıradan çıxarılıb, 1731 müxtəlif təyinatlı hərbi texnika, 18664 silah-sursat müsadirə edilib, həmçinin erməni təxribat qruplarının atış çalışmalarını icra etməsi üçün inşa edilmiş 11 təlim və tədris mərkəzi ləğv olunub. İrihəcmli hərbi birləşmələr əməliyyata cəlb edilməyib, yalnız müxtəlif qoşun növlərini təmsil edən, tərkibi çox da böyük olmayan qruplar döyüş tapşırıqlarının icrasını yerinə yetirib. Silahlı Qüvvələrimiz yüksək peşəkarlıq və beynəlxalq humanitar hüququn norma və prinsiplərinə əməl edərək, heç bir mülki şəxsi və ya obyekti hədəfə almadan, zərbələr endirmədən, yaşayış məntəqələrinə daxil olmadan, erməni əsilli mülki əhali ilə təmasa girmədən antiterror əməliyyatı keçirib. Əməliyyatda iştirak edən bölmələrimizin arxasınca hərəkət edən Daxili İşlər Nazirliyi Daxili Qoşunların bölmələrinə mülki əhalini silahlı toqquşmadan təcridetmə tapşırığı verilib.

Erməni hərbçiləri tərəfindən əksər hərbi obyektlərin və bəzi dayaq məntəqələrinin, hətta atəş nöqtələrinin mülki infrastruktura bənzər vəziyyətdə maskalanmasına baxmayaraq, əməliyyatın planına uyğun olaraq, müşahidə vasitələrimizin sayəsində və kəşfiyyat məlumatları əsasında əvvəlcədən koordinatları dəqiqləşdirilmiş yalnız legitim hərbi hədəflər sıradan çıxarılıb.

Əməliyyat çərçivəsində Ermənistan silahlı birləşmələrinin, qeyri-qanuni erməni silahlı dəstələrinin ön xətt və dərinlikdə hazırladığı 500-dən artıq döyüş mövqeyi, müxtəlif tipli artilleriya qurğuları yerləşdirilmiş 350-dən artıq uzunmüddətli atəş nöqtələri, eləcə də xeyli sayda döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqliyə malik silahların tətbiqi ilə sıradan çıxarıldı. 24 saatdan da az müddətdə 15-18 minlik hərbi qruplaşmanın təslim olmağa məcbur edildiyi əməliyyat nəticəsində 406 kvadrat kilometr ərazi yad ünsürlərdən təmizləndi və düşmən ölü və yaralı olmaqla şəxsi heyət sarıdan 924 itki verdi. Lakin düşmənin itkiləri daha çox da ola bilərdi və buna bölmələrimizin bütün imkanları var idi. 18 minlik ordunun bu qədər az itki ilə tərk-silah edilməsi və Ermənistanın işğalçılıq siyasətinin girovuna çevrilmiş erməni əsilli sakinlərin zərər görməsin deyə silahlı toqquşmadan təcrid olunması əməliyyatın unikallığının göstəricisi və dövlətimizin yürütdüyü humanist siyasətə dəlalət edən ən tutarlı faktdır. Müqayisə üçün Qarabağ müharibəsi döyüşlərinin hər hansı bir əməliyyatında şəhid olan soydaşlarımızın sayını deyil, sadəcə Xocalı faciəsi zamanı ermənilərin dinc sakinlərə qarşı törətdikləri vəhşiliyi, qətlə yetirilən dinc azərbaycanlıların statistikasını nəzərdən keçirmək kifayətdir. Çünki tarix boyu ermənilərin əsas məqsədi yalnız milli mənsubiyyətinə görə azərbaycanlıları maksimum dərəcədə qətlə yetirmək, əlil etmək idi. Bizim məqsədimiz isə sadəcə torpaqlarımızı azad etmək, ədalətin bərqərar olmasını təmin etmək idi.

Üçtərəfli Bəyanatın imzalanmasından sonra Qarabağ iqtisadi zonasından çıxarılmayan işğalçı dövlətin ordusunun qalıqları və separatçı rejimin təxribat-diversiya planlarına xidmət edən qeyri-qanuni erməni silahlı dəstələri ilə bağlı təqdim etdiyimiz statistika məsələnin nə qədər böyük olduğunun, eyni zamanda, Azərbaycan dövləti üçün antiterror əməliyyatının taleyüklü bir məsələ olduğunun göstəricisidir. Bu məsələ kökündən həll olunmasaydı, düşmən qüvvələri zərərsizləşdirilməsəydi, külli miqdarda silah-sursat, texnika məhv edilməsəydi, müsadirə olunmasaydı, bu qədər silah-sursatın gələcəkdə bölgədə hansı fəsadlara, xalqımız üçün hansı faciələrə gətirib çıxaracağını təsəvvür etmək çətin deyil.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev ordumuzun peşəkarlıqla həyata keçirdiyi antiterror əməliyyatındakı uğurlarını yüksək qiymətləndirdi, əməliyyatda iştirak edən hərbçilərimiz orden və medallarla təltif olunublar. Bu diqqət və qayğı hərbçilərimizi Vətənimizin keşiyində daima ayıq-sayıq dayanmağa və üzərinə düşən vəzifələri vicdanla yerinə yetirməyə, hər bir əmrə hazır olmağa ruhlandırır. Bu gün fəxrlə qeyd edə bilərik ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində olduğu kimi, 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının qısa müddət ərzində, uğurla başa çatması ədalətin, Vətən sevgisinin və peşəkarlığın təntənəsidir. Antiterror əməliyyatı bütün Qafqazda dayanıqlı sülhə, əmin-amanlığa, firavan həyata və təhlükəsizliyə misilsiz töhfə verən tarixi missiyadır.

Günü-gündən qüdrətlənən, qələbələr carçısı, qalib Azərbaycan Ordusu daima qürur mənbəyimizdir. Xalq ordumuza inanır və güvənir. Bu inam və güvənc ordumuzun gələcəkdə də böyük zəfərlər qazanacağının təminatıdır.

*Məqalədə Müdafiə Nazirliyinin yaydığı rəsmi məlumatlardan və Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi - mətbuat katibi polkovnik Anar Eyvazovun müsahibəsindən istifadə edilmişdir.*

**Ehtiyatda olan polkovnik-leytenant hərbi jurnalist İsa İSMAYILOV,
tərcüməçi-publisist Nadiyə QAFAROVA**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri, inzibati ərazi bölgüsü, iqtisadi inkişafı

**Suallar:**

**1. Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri və inzibati ərazi bölgüsü.**

**2. Dövlətimizin iqtisadi inkişaf strategiyası.**

### Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri və inzibati ərazi bölgüsü

Hər bir xalqın, millətin xoşbəxtliyi, ilk növbədə, onun müstəqil və güclü dövlətə malik olması ilə müəyyən edilir. Dövlət müstəqilliyi hər şeydən əvvəl onu qazanmış xalqın özünütəsdiqi və milli özünüdərki üçün bir şansdır. Belə bir tarixi şansdan faydalanan və ondan səmərəli istifadə edən xalqlar həm milli inkişafa nail olur, həm də sahib olduqları dövlətin dayaqlarını möhkəmləndirə bilirlər.

Azərbaycan Respublikasının siyasi sistemi milli və tarixi şəraitin xüsusiyyətlərini əks etdirməsi ilə səciyyəvidir. Siyasi sistemin fəaliyyətinin formalaşmasına əhalinin siyasi mədəniyyətinin xüsusiyyətləri mühüm təsir göstərir. Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş demokratik dövlət quruculuğu prosesi bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Çıxışlarının birində dövlət başçısı cənab İlham Əliyev demişdir: "Müstəqilliyi bərpa etdikdə, biz dövlətimizi qurmalı və siyasi sistemimizi transformasiya etməli idik. Bu səbəbdən siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılırdı. Biz aydın başa düşdük ki, təbii sərvətlər ölkənin transformasiyası və Azərbaycanın davamlı inkişafının təmin olunması üçün kifayət etməyəcək. Bu səbəbdən siyasi islahatlar, demokratik proses və azadlıqlarla bağlı məsələlər bizim diqqət mərkəzimizdə olmuşdur. Bu gün Azərbaycanda bütün fundamental azadlıqlar - siyasi azadlıq, media azadlığı, azad internet, din azadlığı təmin edilib. Bu isə inkişafın əsası və təməli deməkdir".

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- xalqın iradəsinin ifadəsi olaraq qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
- ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Konstitusiyanın 7-ci maddəsinə əsasən, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır. Unitar dövlət (latın dilində "unus" - "vahid", "tək" deməkdir) - sadə, bəsit, vahid dövlətdir ki, onun tərkibi, bir qayda olaraq, inzibati-ərazi vahidlərindən (vilayət, mahal, rayon, departament və s.) ibarətdir.

Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq, Azərbaycan Respublikasında müstəqil şəkildə formalaşan və fəaliyyət göstərən üç hakimiyyət qolu qərarlaşmışdır: qanunvericilik, icra və məhkəmə hakimiyyəti. Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini həyata keçirən orqan Milli Məclis, icra hakimiyyətini həyata keçirən Azərbaycan Respublikasının Prezidenti, məhkəmə hakimiyyətini həyata keçirən orqan Azərbaycan Respublikasının məhkəmələridir. Bu hakimiyyət orqanlarından hər birinin fəaliyyəti Konstitusiya və qanunvericilik aktları ilə tənzimlənir. Azərbaycanın siyasi sistemində yerli özünü idarəetmə orqanları olan bələdiyyələr də mühüm yer tutur. Bütün müasir siyasi sistemlər kimi Azərbaycanın siyasi sisteminə də çoxpartiyalılıq, plüralizm xasdır.

**Azərbaycan Respublikasının dövlət rəmzləri**

Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Konstitusiyasının 23-cü maddəsində göstərildiyi kimi, Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

**Dövlət bayrağı** - Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. Üçrəngli bayraq ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bərpa edilərək, Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edilmişdir. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir.

Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir.

**Dövlət gerbi** - Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmış, lakin 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində gerb qəbul edilməmişdir. Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Azərbaycan Respublikasının Dövlət gerbi Azərbaycan dövlətinin müstəqillik rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır.

**Dövlət himni** - 1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin milli himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın milli himnini də qəbul etməyə imkan vermədi. 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" Azərbaycanın Dövlət himni kimi təsdiq edildi.

Ərazi quruluşu və inzibati ərazi bölgüsü - Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Qanun Azərbaycan Respublikasının ərazi quruluşunun və inzibati ərazi bölgüsünün, habelə ərazi vahidlərinin qeydiyyatının, sərhədlərinin müəyyən edilməsinin və dəyişdirilməsinin, adlandırılmasının və ya onların adlarının dəyişdirilməsinin, hüquqi əsaslarını, eləcə də ərazi quruluşu və inzibati ərazi bölgüsü ilə bağlı digər məsələlərin tənzimlənməsində dövlət orqanlarının və bələdiyyələrin səlahiyyətlərini müəyyən edir.

Azərbaycan Respublikasının paytaxtı, böyük elmi-mədəni və sənaye mərkəzi olan - Bakı şəhəridir. Bakı şəhəri Abşeron yarımadasının cənubunda, Xəzər dənizinin sahilində yerləşir.

### Dövlətimizin iqtisadi inkişaf strategiyası

Dövlət müstəqilliyi və siyasi azadlıq milli iqtisadiyyatın inkişafına şərait yaratdığı kimi, milli iqtisadiyyatın inkişafı və güclənməsi də dövlət müstəqilliyinin dayaqlarını daha da möhkəmləndirir. Əgər Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya bilməsəydi, nə neft strategiyasını, nə də təşəbbüskarı olduğumuz digər strateji və transmilli layihələri həyata keçirə bilərdik. Dövlət müstəqilliyinin gücləndirilməsi iqtisadiyyatımızın milli maraqlara uyğun inkişaf etdirilməsinə şərait yaratmışdır. Azərbaycanın təkcə dövlətçilik deyil, həm də iqtisadi inkişaf tarixinin ən parlaq və şərəfli dövrü Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Həmin dövrün siyasi və iqtisadi aspektlərinin öyrənilməsi hər zaman öz aktuallığını saxlayır. Bu, gələcək inkişafımızın əsas istiqamətlərini müəyyən etmək və bir daha dəqiqləşdirmək baxımından zəruridir. Ulu Öndərin "İqtisadiyyatı qüdrətli olan dövlət hər şeyə qadirdir" fikri bir daha təsdiq edir ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev milli iqtisadiyyatımızın inkişafına dövlət quruculuğunun mühüm tərkib hissəsi kimi hər zaman böyük önəm vermişdir.

Ulu Öndər Heydər Əliyev 1993-cü ildən - müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk dövrdən müasir dünya düzəninin inkişaf meyillərini uzaqgörənliklə qiymətləndirərək, çağdaş cəmiyyətin qəbul etdiyi inkişaf yolunu seçdi. 1994-cü ildə isə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının əsası qoyuldu. Bu strategiya çərçivəsində həyata keçirilmiş tədbirlər, o cümlədən Dövlət Neft Fondunun yaradılması məhz davamlı inkişafın təmin edilməsinə, dövlətimizin iqtisadi və sosial dayaqlarının möhkəmləndirilməsinə yönəldilmişdir.

İqtisadi islahatların həyata keçirilməsi üçün münbit şəraitin yaradılması, milli iqtisadiyyatımızın bazar münasibətləri əsasında inkişafına konstitusion təminatın verilməsi, neft müqavilələrinin imzalanması, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi, ölkəmizin beynəlxalq əhəmiyyətli strateji-iqtisadi layihələrə qoşulması, dünyanın qabaqcıl dövlətləri ilə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi Ulu Öndər Heydər Əliyevin fəaliyyəti, onun bu sahədə atdığı strateji addımların nəticəsində mümkün olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli Fərmanı ilə hökumətin iqtisadi blokuna ilk tapşırıqlarını vermişdir. Ölkəmizin sosial-iqtisadi həyatının ən aktual problemlərini özündə əks etdirən bu Fərmanı dövlət başçısının iqtisadi komandaya ilk tapşırıqlarının məcmusu kimi qiymətləndirmək olar.

Ümumiyyətlə, məqsəd və vəzifələri, orta və uzunmüddətli dövr üçün inkişaf istiqamətlərini dəqiq müəyyənləşdirmədən, müxtəlif sahələr üzrə fəaliyyət proqramlarını hazırlamadan həyata keçirilən hər hansı bir tədbir ölkənin sosial-iqtisadi həyatında əsaslı dönüş yarada bilməz. 2003-2021-ci illər ərzində dövlət başçısının məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan vermişdir.

Dünya ölkələri, xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənmiş, Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasına layiqli töhfələr vermişdir. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyəti olan "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TANAP və TAP layihələri, həmçinin "Şahdəniz-2" layihəsi xüsusi olaraq qeyd edilməlidir.

Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsi qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, yoxsulluq səviyyəsinin azaldılması, çoxsaylı iş yerlərinin açılması ilə xarakterizə olunur. Eyni zamanda, erməni işğalından azad edilmiş ərazilərin bərpa edilməsi və bu da iqtisadi fəallığın yüksəlməsi ilə müşayiət olunur. İşğala məruz qalmış ərazilərdə "Ağıllı şəhər", "Ağıllı kənd" konsepsiyalarının reallaşdırılması, Laçın rayonunda beynəlxalq hava limanının, eyni zamanda, həm iqtisadi, həm siyasi, həm də tarixi baxımdan çox vacib olan "Zəngəzur dəhlizi"nin açılması nəzərdə tutulmuşdur. Dövlət investisiyaları vasitəsilə infrastruktur obyektlərimiz modernləşdirilir. Xidmət, tikinti, rabitə və informasiya texnologiyaları, nəqliyyat, turizm, emal sektoru qeyri-neft sektorunun potensial sahələri kimi inkişaf etməkdədir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və siyasi sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər ölkəmizin hərtərəfli inkişafı üçün böyük imkanlar və yeni-yeni perspektivlər açır. Heç şübhəsiz, Azərbaycanın bugünkü inkişafı onu ortamüddətli perspektivdə yüksək həyat səviyyəsinə, güclü iqtisadiyyata malik ölkələr sırasına daxil edəcəkdir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Şəhid olan Vətən övladlarının xatirəsi anıldı





(Əvvəli 3-cü səhifədə)

Əslən Cəlilabad rayonundan olan, Xocalı rayonunun Dəhrəz kəndi uğrunda gedən döyüş əməliyyatı zamanı şəhidlik zirvəsinə yüksələn "N" hərbi hissəsinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ramazan Hüseynzadənin adı doğulub boya-başa çatdığı Muğan kəndinin mərkəzi küçəsində əbədiləşdirildi. Eyni zamanda, Birinci Qarabağ müharibəsi zamanı könüllü olaraq döyüşlərə yollanan və 4 yanvar 1994-cü ildə Horadiz istiqamətində itkin düşən şəhidimizin əmisi Hilal Hüseynovun da adı doğulduğu Muğan kəndindəki küçələrdən birinə verilib. Ramazan Hüseynzadənin adını daşıyan küçənin təntənəli açılış mərasimi oldu.

Açılış mərasimində Cəlilabad rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilov çıxış edərək bildirdi ki, Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi, suverenliyi uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini qədirbilən xalqımız daima uca tutur, onların adlarının əbədiləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilir. "Şəhid ailələri və əməliyyatlar zamanı sağlamlıqlarını itirən hərbi qulluqçularımız dövlətimizin yüksək diqqət və qayğısı ilə əhatə olunublar. Bu gün bu küçənin açılış mərasiminə toplaşmışıq. Cəlilabad igidlər diyarıdır. Şəhid Ramazan Hüseynzadənin mənsub olduğu ailə də Cəlilabadın fəxr ediləsi ailələrindən biridir. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların xatirəsini hər zaman qəlbimizdə yaşadacağıq".

Vaxtilə orta məktəbdə Ramazana dərs deyən Yaqub Mənsimov torpaqlarımızın azadlığı uğrunda şəhid olan şagirdləri ilə bağlı xatirələrindən danışdı. Onlarla həmişə qürur duyduğunu, fəxr etdiyini xüsusi vurğuladı. O cümlədən şəhid Ramazan Hüseynzadənin onun sevimli, nümunəvi şagirdlərindən biri olduğunu və bu ailənin beş üzvünün respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarında iştirak etdiyini, ikisinin isə Vətən yolunda canından keçdiyini dedi.

Şəhid Ramazan Hüseynzadənin babası Dövlət Hüseynov və valideynləri Pərvanə və Həmdulla Hüseynovlar şəhid ailələrinə göstərilən diqqət və qayğıya, adlarının uca tutulmasına görə dövlətimizin başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdalıqlarını bildirdilər.

Sonra məktəblilər şəhidlərimizin xatirəsinə həsr edilmiş şeirlər səsləndirdilər, ədəbi-bədii kompozisiya nümayiş etdirdilər.

Anım mərasimi şəhidlər Ramazan Hüseynzadənin və əmisi Hilal Hüseynovun xatirəsinə inşa edilmiş bulaq-abidə kompleksinin açılışı ilə davam etdi. Mərasimdə Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan polkovnik-leytenant Kamil Duniyev çıxış edərək bildirdi ki, şəhidlərimizin adlarının daima yaşaması üçün belə tədbirlərin keçirilməsi təqdirəlayiqdir. "Parlaq qələbəmizin qazanılmasında şəhidlərimizin, müharibə iştirakçılarının misilsiz xidmətləri vardır. Onların müqəddəs ruhu qarşısında ehtiramla baş əyirəm".

"N" hərbi hissəsinin zabiti Mikayıl İlyasov çıxışında Ramazanın əməliyyat tədbirləri zamanı qorxmazlığından və vətənpərvərliyindən söhbət açdı.

Daha sonra Cəlilabad rayon İcra Hakimiyyətinin rəhbər heyəti, rayonun hüquq-mühafizə orqanlarının və ictimaiyyətin nümayəndələri, eləcə də digər qonaqlar şəhidlər Davud Qiyaslının, Məhərrəm Hüseynovun və Nəcməddin Quliyevin də onun mərasimində iştirak edərək, valideynlərinə Allahdan səbir dilədilər.

Sonda şəhid olan Vətən övladlarımızın məzarları ziyarət olundu, üzərlərinə əkillər, tər çiçəklər düzüldü, ruhlarına dualar oxundu.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# "HDQ-də döyüş hazırlığının qiymətləndirilməsi kursu" keçirilir



Bakıda NATO-nun əməliyyat imkanları konsepsiyası proqramı çərçivəsində "Hərbi Dəniz Qüvvələrində (HDQ) döyüş hazırlığının qiymətləndirilməsi kursu" keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, NATO və tərəfdaş ölkələrin nümayəndələrinin iştirakı ilə keçirilən kursun əsas məqsədi HDQ-nin müxtəlif səviyyəli bölmələrinin döyüş hazırlığının qiymətləndirilməsi üçün NATO və milli qiymətləndiricilərin hazırlanmasından ibarətdir.




**Dünyanın ilk milli parklarından biri olan Tonqariro Yeni Zelandiyanın Şimal adasının mərkəzi yaylasında yerləşir. Ölkənin ən əhəmiyyətli təbii sahələrindən biridir və beynəlxalq səviyyədə tanınır. Milli park 765 kvadratmetr ərazini əhatə edir. Tongariro Milli Parkı dünyada qurulan dördüncü milli park olmuşdur.**

**Parkda müxtəlif növ landşaftlar var: meşə-kolluqlar, kolluqlar, çöl otlaqları və s. Yaxşı inkişaf etmiş meşə - ekzotik ağac növlərinin və sıx ağac və otlu qıjıların qarışıq subtropik meşəsidir. Burada müxtəlif növ fıstıq, qırmızı şam və digər ağacların qarışıq meşələri və ağacsız düzənliklər var.**

**Parkda çoxlu maraqlı quşlar, o cümlədən qırmızı yaxalı tutuquşu, şahin, mavi ördək və s. var.**

**Tongariro Milli Parkını ilin istənilən fəslində ziyarət etmək mümkündür.**

**"Azərbaycan Ordusu"**

# İdman

### Azərbaycanın iki boksçusu xatirə turnirində fəxri kürsüyə qalxıb



Azərbaycan boksçuları Polşada Feliks Stammın xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə uğurla çıxış ediblər.

Yığmanın iki üzvü - Maqsud Xasmetov (63,5 kiloqram) və Nəbi İsgəndərov (71 kiloqram) finala kimi irəliləyiblər.

Hər iki idmançı həlledici görüşdə məğlub olaraq gümüş medala yiyələniblər.

### IBA Çempionlar Gecəsi: Azərbaycanın daha iki boksçusu qələbə qazanıb



Azərbaycanın daha iki boksçusu Bakıda Beynəlxalq Boks Assosiasiyasının (IBA) təşkil etdiyi Çempionlar Gecəsində qələbə qazanıb.

+92 kiloqram çəki dərəcəsində çıxış edən Məhəmmədrəsul Məcidov qazaxıstanlı Nursultan Amanjolovu, Məhəmməd Abdullayev isə kolumbiyalı Kristian Salsedonu məğlub edib.

Daha əvvəl Azərbaycanın digər boksçuları Nicat Hüseynov (51 kiloqram) və Sərxan Əliyev (71 kiloqram) rinqdən qalib kimi ayrılıblar.

Qeyd edək ki, Azərbaycan Boks Federasiyasının 100 illiyi çərçivəsində Milli Gimnastika Arenasında təşkil olunan yarışda dünyanın ən güclü boksçularının iştirakı ilə 8 döyüş baş tutub. Bu görüşlərin 4-də Azərbaycan idmançıları da təmsil olunublar.

Bundan əvvəl isə 71 kiloqram çəki dərəcəsində mübarizə aparan S.Əliyev monqolustanlı Monx-Erdene Urançimeqə, 51 kiloqramda Avropa çempionu Nicat Hüseynov isə Con Zuluetana (Filippin) qalib gəlib.

### Azərbaycan badmintonçuları beynəlxalq turnirdə gümüş medal qazanıblar



Azərbaycan badmintonçuları Aqil Qabilov və Era Maftuha Uqandanın paytaxtı Kampala şəhərində keçirilmiş "Future" seriyalı beynəlxalq turnirdə gümüş medal qazanıblar.

Mübarizəyə 1/16 finaldan başlayan cütlük qarışıq qoşa kateqoriyasında ardıcıl 3 qələbə qazanaraq turnirin finalına kimi irəliləyib.

Fəxri kürsünün ən yüksək pilləsi uğrunda keçirilən qarşılaşmada Malayziya təmsilçiləri Əşrəf Daniel Zakaria-Lim Xuan qoşasına hər iki setdə (18-21,17-21) məğlub olan badmintonçularımız gümüş mükafatla kifayətlənib.

### Azərbaycan taekvondoçuları beynəlxalq turnirdə 14 medal qazanıblar



Azərbaycanın yeniyetmə taekvondoçuları Albaniyanın paytaxtı Tirana şəhərində keçirilən "Albania Open" turnirində 14 medal qazanıblar.

Bunlardan 5-i qızıl, 2-si gümüş, 7-si bürünc mükafatdır.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Əliyev Xəyal Tahir oğluna verilmiş AD № 0028980 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları baş matros Abiyev Cavanşir Sahibəli oğluna verilmiş AD № 0029388 nömrəli, əsgər Əzizov Fərmail Fəraməz oğluna verilmiş AD № 0056804 nömrəli, əsgər Şərifov Nahid Rövşən oğluna verilmiş AD № 0061695 nömrəli və əsgər Məmmədov Səbuhi Zakir oğluna verilmiş AD № 0045846 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Oruc MUSTAFAYEV

Lisenziya № 361
Sifariş № 593
Nüsxə 4650